# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

22-23 (117-118) 22 dekabr 2018-ci il İctimai-siyasi qəzet


## Azərbaycan Milli İncəsənət Muzeyinin üçüncü korpusu əsaslı bərpa və yenidənqurmadan sonra açılıb

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər

Dekabrın 18-də Azərbaycan Milli İncəsənət Muzeyinin üçüncü korpusunun əsaslı təmir və yenidənqurmadan sonra açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva binada yaradılan şəraitlə tanış oldular.

Mədəniyyət naziri Əbülfəs Qarayev dövlətimizin başçısına və birinci xanıma görülən işlərlə bağlı məlumat verdi.



Qeyd edildi ki, Azərbaycan Milli İncəsənət Muzeyi XIX əsrdə inşa edilən iki yanaşı tarixi binada yerləşir. 1891-1893-cü illərdə Bakının baş memarı Nikolay fon der Nonne tərəfindən inşa edilən binada ayrı-ayrı vaxtlarda müxtəlif idarə və təşkilatlar yerləşib. 1936-cı ildə əsası qoyulan İncəsənət Muzeyi 1951-ci ildən bu binada fəaliyyətini davam etdirib. Burada çox sayda qiymətli sənət əsərinin yerləşdirilməsi və ekspozisiyanın ildən-ilə zənginləşdirilməsi bu sənət məbədinə marağı daha da artırıb. Zaman keçdikcə təbii aşınmalar nadir sənət nümunələrinin toplandığı bu binanın təmiri zərurətini yaradıb. Əvvəllər burada belə genişmiqyaslı təmir işləri aparılmayıb. Prezident İlham Əliyevin Sərəncamı ilə muzeydə əsaslı təmir və yenidənqurma işləri görülüb. "Mariinski Qadın Gimnaziyası" adlanan birinci korpus 2009-cu ilin sentyabrında istifadəyə verilib.

2014-2018-ci illərdə isə muzeyin "De Burun malikanəsi" adlanan korpusunda İtaliya və Azərbaycan mütəxəssislərinin birgə səyləri ilə əsaslı təmir işləri həyata keçirilib. Bərpa-təmir işlərinə başlamazdan əvvəl muzey binasında xüsusi tədqiqat aparılıb. Binanın fiziki və texniki vəziyyəti öyrənilib. Ölkə əhəmiyyətli bu memarlıq abidəsinin tavan və divarlarında mövcud yapma rəsm bəzək və digər işlər ilkin vəziyyətə gətirilib. Memarlıq və bəzək elementləri təmizlənib, bərkitmə işləri yerinə yetirilib. Uzun illər ərzində cari təmir işləri aparmaqla tavan və divarlarda yeddi qat üst-üstə vurulan boya xüsusi texnologiya ilə təmizlənərək birinci rəng qatı müəyyən edilib. Əsas giriş qapıları və bir çox daxili qapılar təmizlənərək bərpa olunub. Milli İncəsənət Muzeyində yeni yaradılan şərait sərgi zallarında yerləşdirilən əsərlərin bütün təsiredici amillərdən - nəmişlik, temperatur, ultra şüalar və digər amillərdən qorunmasını və təhlükəsizliyini təmin edir, bununla bərabər, muzeyə gələn insanların rahatlığına, eyni zamanda, baxdıqları əsərlərdən zövq almalarına şərait yaradır.

Binanın memarlığı və qədimliyi saxlanılmaqla həm texniki, həm də texnoloji baxımdan lazım olan innovativ və yeni funksionallığı təmin edilib. Yenidənqurma və əsaslı təmir işləri ilə yanaşı, binada ekspozisiya zalları genişləndirilib, binanın seysmik davamlılığı artırılıb. On səkkiz mindən çox eksponatın saxlanıldığı Milli İncəsənət Muzeyində rəngkarlıq, qrafika, heykəltəraşlıq və tətbiqi sənət nümunələri nümayiş olunur. Üçüncü korpusda isə 2 mindən çox eksponat saxlanılır.

Bildirildi ki, Azərbaycan Milli İncəsənət Muzeyinin mövcud binaları arasında mərkəzləşdirilmiş giriş yaratmaq üçün 2013-cü ildə açılışı olan keçid korpusu da var. Bina memarlığın həm ampir, həm də barokko üslublarının istifadə edildiyi tarixi memarlıq abidəsidir. Xüsusi sifariş edilmiş güzgülər, çıraqlar və sobalar bu məkana gözəllik verir.

Muzeydə dünya incəsənəti nümunələri də nümayiş etdirilir. Ekspozisiya planına əsasən kolleksiyanı Qərbi Avropa, o cümlədən İtaliya, Hollandiya, Almaniya, Fransa, həmçinin Rusiya və Çin, Türkiyə, İran və Hindistan da daxil olmaqla Şərq incəsənəti təşkil edir. İlk dəfə olaraq yeni ekspozisiyada qədim dünya incəsənəti də təqdim olunur: buraya qədim Misir, qədim Yunanıstan, qədim Roma və qədim İran incəsənətləri daxildir. Bununla yanaşı, ilk dəfə olaraq Fransa zallarında fransız impressionistlərin əsərlərini görmək mümkündür. Bundan başqa, muzeyin ekspozisiyasında Rusiya avanqardı ilə yanaşı, avanqard çini məmulat və əsərləri də seyr etmək imkanı olacaq. Dünyanın istənilən muzeyi burada təqdim olunan əsərlərlə fəxr edə bilər.

Binada aparılan yenidənqurma və əsaslı təmir işləri, nümayiş etdirilən zəngin kolleksiya ilə yaxından tanış olan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət ocağının fəaliyyətinə uğurlar arzuladılar.

## *Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov veteranları təbrik edir*

*Əziz veteranlar,*

Sizi və yaxınlarınızı 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və qarşıdan gələn yeni - 2019-cu il münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Dünya azərbaycanlılarının həmrəylik gününü ən yüksək səviyyədə bayram kimi qeyd etmək xalqımızın ictimai fikir tarixində əlamətdar bir hadisəyə çevrilmişdir. Milli birliyimizin rəmzinə çevrilmiş bu günü soydaşlarımız artıq 27 ildir ki, ən əziz bayramlarından biri kimi qeyd edirlər.

2018-ci il Respublika Veteranlar Təşkilatı üçün yaddaqalan olmuşdur. Təşkilat qarşıya qoyduğu bütün vəzifələrin ödəsindən layiqincə gəlməyi bacarmışdır. Veteranların ölkənin ictimai-siyasi həyatında daha fəal iştirakına nail olan Respublika Veteranlar Təşkilatı onların maddi-sosial problemlərinin həllində, gənclərin vətənpərvərlik, dövlətinə, xalqına sədaqət ruhunda tərbiyə olunmasında yaxından iştirak etmişdir. Respublikada veteran hərəkatının bayraqdarı olan Təşkilatımızın 2018-ci ildə keçirdiyi silsilə tədbirlər nəinki ölkədə, ondan kənarda belə böyük rezonans doğurmuş, ən yüksək səviyyədə diqqət cəlb etmişdir. Yola saldığımız il biz 20-yə yaxın xarici ölkənin, eləcə də Azərbaycanın akademik və hərbi dairələrinin, dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə Respublika Veteranlar Təşkilatının 30 illik yubileyini təntənə ilə qeyd etdik. Yubiley çərçivəsində keçirilən "Müasir dünyada təhlükəsizlik: qlobal və regional çağırışlar" mövzusunda beynəlxalq konfrans Azərbaycan veteranının əzmini, yüksək intellektini nümayiş etdirdi. Beynəlxalq tədbirdə regional təhlükəsizliyə ciddi təhdid olan Ermənistanın işğalçılıq siyasəti bir daha açıq şəkildə, birmənalı bəyan edildi. Başqa çoxsaylı uğurlarımız barədə də kifayət qədər danışmaq olar.

İnanırıq ki, fəaliyyətini uğurla davam etdirən Respublika Veteranlar Təşkilatı üçün 2019-cu il daha yaddaqalan olacaqdır. 2019-cu il hər birimiz, ümumən Azərbaycan üçün uğurlu, Qələbə ili olacaqdır. Bizlərin - vətəninə və xalqına şərəflə xidmət etmiş veteranların işğal altında olan torpaqlarımızın azad ediləcəyinə, şanlı qələbə bayrağımızın



Qarabağda dalğalanacağına inamı sonsuzdur.

*Əziz Veteranlar,*

Sizi bir daha 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və yeni il münasibəti ilə ürəkdən təbrik edir, möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik və firavanlıq arzulayıram.

*Tofiq Ağahüseynov,*
*Respublika Veteranlar Təşkilatının sədri,*
*general polkovnik*

AZƏRBAYCAN VETERANI

# Veteranlar ulu öndər Heydər Əliyevin diqqət və qayğısını daim məmnunluqla xatırlayırlar





Azərbaycanda Böyük Vətən müharibəsi veteranlarına diqqət və qayğı siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər veteranların problemlərini daim diqqət mərkəzində saxlayıb və onların həlli üçün göstərişlər verib.

Bu fikirlər dekabrın 10-da Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında ulu öndər Heydər Əliyevin vəfatının 15-ci ildönümü ilə əlaqədar keçirilən anım tədbirində səsləndirilib.

Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabanda xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn tədbir iştirakçıları Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə güllər qoyub, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.





Respublika Veteranlar Təşkilatının əməkdaşlarının, veteranların və ziyalıların iştirak etdikləri anım mərasimində əvvəlcə ulu öndər Heydər Əliyevin, Azərbaycanın dövlət müstəqilliyi, torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən, Azərbaycan xalqı üçün əvəzsiz xidmətlərindən danışıb. Bildirib ki, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev tarixin yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Azərbaycan tarixinin taleyüklü hadisələrlə dolu otuz ildən çox mühüm bir dövrü məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev uzaqgörənliyi, qətiyyəti sayəsində Azərbaycan dövlətini zamanın ən çətin sınaqlarından çıxararaq, ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olub. Azərbaycanın 1969-cu ildən sonrakı dövrü tarixə Heydər Əliyev dövrü kimi əbədi həkk olunub. 1969-1982-ci illərdə ictimai həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. T.Ağahüseynov, həmçinin Ulu Öndərlə bağlı xatirələrini bölüşüb.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov ulu öndər Heydər Əliyevin keçdiyi həyat yolundan, onun Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən söz açaraq deyib: "Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı zamanın ağır sınaqlarından çıxarıb. O, böyük siyasi və dövlət xadimi, xalqın şəksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilib. Buna görə də Heydər Əliyev fenomeni həmişə diqqəti cəlb edib. Dünya azərbaycanlılarının Ümummilli Liderinin heyranlıq doğuracaq dərəcədə coşqun siyasi fəaliyyəti istər ölkə, istərsə də dünya mətbuatında geniş işıqlandırılıb".

Diqqətə çatdırılıb ki, Azərbaycan xalqı milli dövlətçiliyin dağılmaq təhlükəsi qarşısında qaldığı, ən ağır günlərini yaşadığı bir zamanda - 1993-cü ilin iyununda mövcud hakimiyyətin dəyişilməsini təkidlə tələb edib və həmin vaxtdan taleyini öz xilaskarına etibar edib. Xalqının təkidli dəvətini qəbul edən Heydər Əliyevin hakimiyyətə qayıdışı günü müstəqil Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi həkk olunub.

İkinci Dünya müharibəsi veteranları çıxışlarında ulu öndər Heydər Əliyevin gördüyü işlərdən bəhs edib, Ümummilli Liderlə bağlı xatirələrini bölüşüblər. Veteranlar Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı böyük nailiyyətlərdən qürur duyduqlarını bildiriblər.



# Respublika Veteranlar Təşkilatının VIII plenumu keçirilib

Dekabrın 11-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının VIII plenumu keçirilib.

Tədbirdə dövlət nümayəndələri, veteranlar, şəhər və rayon veteran təşkilatlarının sədrləri iştirak ediblər.

Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov plenumu açaraq tədbirin gündəliyi barədə məlumat verib. Bildirib ki, tədbirdə təşkilatın builki fəaliyyətinin yekunları, 2019-cu il üçün tədbirlər planı və cari məsələlər müzakirə olunacaq.

Gündəlik təsdiqləndikdən sonra Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov qurumun cari ildəki fəaliyyətinin yekunları və qarşıda duran vəzifələrə dair hesabat məruzəsi ilə çıxış edib. Ulu öndər Heydər Əliyevin veteranlara daim diqqət və qayğı göstərdiyini vurğulayan məruzəçi hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Vurğulayıb ki, veteranların sosial müdafiəsinin gücləndirilməsi qurumun fəaliyyətinin əsas istiqamətlərindən biridir.

Cəlil Xəlilov bildirib: “Bu il bütün Azərbaycan, eləcə də Respublika Veteranlar Təşkilatı üçün sözün tam mənasında uğurlu il olmuşdur. Biz cari ildə çoxsaylı və mühüm tədbirlər keçirmiş, veteran hərəkatının yüksəlişi, gənclərin vətənpərvərlik tərbiyəsi, veteranların sosial müdafiəsinin gücləndirilməsi, onların ölkənin ictimai-siyasi həyatında daha fəal iştirakı istiqamətində uğurlu fəaliyyət göstərmişik.

Əlbəttə, bütün bunlar da, ümumən Azərbaycanda veteranlarla bağlı dövlət tərəfindən həyata keçirilən ardıcıl və məqsədyönlü siyasətin mühüm rolu vardır. Hər il İkinci dünya müharibəsi iştirakçılarına, bu müharibədə həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə verilən birdəfəlik maddi yardımın həcminin artırılması, eləcə də veteranların sosial müdafiəsinin gücləndirilməsi sahəsində imzalanan fərman və sərəncamlar bu qayğının bariz təzahürləridir. Respublika Veteranlar Təşkilatı göstərilən qayğını yüksək qiymətləndirir və ona layiqincə cavab vermək üçün fəaliyyətinin səmərəliliyini ildən-ilə artırır.

2018-ci ildə Təşkilat tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin, Silahlı Qüvvələrin yaradılmasının, Bakının daşnak-bolşevik qaragüruhundan azad olunmasının, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hənifə oğlu Hüseynzadənin anadan olmasının 100 illik, ümummilli lider Heydər Əliyevin 95 illik yubileylərinin keçirilməsi planlaşdırılmışdı. Bu yubileylərin hamısı həqiqətən də, yüksək səviyyədə keçirilmiş, ictimaiyyətdə böyük rezonans doğurmuşdur. Bu tədbirlərin nəinki ölkə, beynəlxalq səviyyədə keçirilməsi üçün də işlər görülmüşdür. RVT Rəyasət Heyətinin üzvləri Türkiyənin Əskişəhər şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransda iştirak etmişlər.

Veteranlarımız 2018-ci il aprel ayının ölkədə keçirilən Prezident seçkilərində fəal iştirak etmiş və özlərinin layiqli namizədləri hesab etdikləri cənab İlham Əliyevi bir nəfər kimi dəstəkləmişlər.





İkinci dünya müharibəsində alman faşizmi üzərində qələbənin 73 illiyi əlaqədar həm Mərkəzi Aparatda, həm də yerlərdə tədbirlər keçirilmiş, veteranlarla dövlət orqanlarında, ictimai təşkilatlarda, xüsusilə ali və orta təhsil ocaqlarında silsilə görüşlər baş tutmuşdur. Mayın 9-da faşizm üzərində Qələbənin bayram edilməsi günündə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev veteranlarla görüşmüş, veteranlara dövlət başçısının adından böyük ziyafət verilmiş, onların qaldırdıqları məsələlər həllini tapmışdır.

9 mayda Respublika Veteranlar Təşkilatında Müdafiə Nazirliyinin köməyi ilə 80 nəfər veterana xidmət üçün səyyar mətbəx qurulmuş və veteranlar Hərbi orkestrin ifa etdiyi müharibə vətən, qələbə, sevgi haqqında mahnıların sədaları altında bayram tədbiri keçirmişlər. Qələbənin 73-cü ildönümündə “Azərbaycan Veteranı” qəzetinin xüsusi nömrəsi buraxılmışdır. Yeri gəlmişkən, “Azərbaycan Veteranı” qəzeti Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrin 100 illik yubileylərinə də xüsusi buraxılış həsr etmişdir.

Hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, yeni nəslin Azərbaycan dövlətinə və xalqına sədaqət ruhunda hazırlanmaları məqsədi ilə keçirilən tədbirlər ölkənin bütün rayon və şəhərlərini əhatə etmişdir. Bu tədbirlərdə Təşkilatın rəhbərliyi və əməkdaşları, rayon veteran təşkilatlarının sədrləri, tədbirin təşkil olduğu ərazidə yaşayan fəal veteranlar, yerli icra orqanlarının və ictimaiyyətin nümayəndələri iştirak etmişlər. Ümumiyyətlə, tədbirlərimiz həm coğrafiya, həm də mövzu və auditoriya baxımından kifayət qədər geniş və zəngin olmuşdur.

16 oktyabr 2018-ci ildə Azərbaycan Respublikası Veteranlar Təşkilatının təşkilatçılığı ilə DTX-nın Şəhriyar adına Mədəniyyət Mərkəzində Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının 30 illik yubileyi keçirilmişdir. 17 oktyabr 2018-ci ildə isə 30 illik yubileyi çərçivəsində Bakı şəhərində, “Park-İnn” hotelində dünyanın 17 ölkəsindən yüksək səviyyəli qonaqların, o cümlədən Dünya Veteranları Federasiyasının prezidenti, cənab Dan-Viggo Bergtunun, Azərbaycan Respublikasının dövlət orqanları, Parlament üzvləri, akademik və hərbi dairələri, ictimai təşkilatların, veteranların iştirakı ilə “Müasir dünyada təhlükəsizlik: qlobal və regional çağrışlar” mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Beynəlxalq konfransın iştirakçılarının Azərbaycan Respublikası Əmək Əhalinin Sosial Müdafiəsi Nazirliyində nazir Sahil Babayevlə və Müdafiə Nazirliyində rəsmi görüşləri baş tutmuşdur.

İl ərzində RVT-yə veteran və veteran ailələri nümayəndələrindən rəsmi surətdə 200-dən çox məktub, ərizə və müraciətlər daxil olmuşdur. Həmin məktub, ərizə və müraciətlər əsasında veteranların sosial-hüquqi müdafiəsinin təmin olunması, problemlərinin həlli məqsədi ilə 120 veteran barəsində müxtəlif dövlət orqanlarına rəsmi məktublar, sorğular göndərilmişdir. Həmin məktubların məzmununa gəlincə, bu mənzillə, işlə təminat, mənzil təmiri, xüsusi avtomaşın alınmasından başlamış, şəhid statusunun bərpası, pensiyaların yenidən hesablanması, müharibə veteranı vəsiqəsinin verilməsi, mükafatlandırılma, borcun silinməsi, məhkəmə qərarlarının icrasına qədər ən müxtəlif sahələri əhatə etmişdir.

Eləcə də, il ərzində telefon vasitəsi ilə 120-yə yaxın müxtəlif zümrədən olan veteranın müraciət və xahişi araşdırılmış, zəruri hallarda onlar Təşkilatda qəbul edilmişlər. 100 nəfərdən artıq veterana hüquqi yardım göstərilmişdir. Həmçinin, maddi yardım edilməsi barədə müxtəlif dövlət orqanlarına müraciət etmiş 60 veteran barəsində həmin orqanlara məlumat verilmiş, itkin düşmüş müharibə iştirakçılarının axtarışı ilə məşğul olunmuşdur.



Əlillik dərəcəsi olan müharibə veteranları fərdi minik avtomaşını ilə təmin edilib. Veteranlar ildə bir dəfə hərtərəfli tibbi müayinədən keçirilir. Bu il Müxtəlif kateqoriyadan olan 3400 nəfər veteran Mərdəkanda fəaliyyət göstərən Veteranlar Xəstəxanasında müalicə almışdır. Son üç ildə və cari il ərzində respublika Protez Ortopedik Bərpa Mərkəzi tərəfindən 1460 nəfər müharibə əlilinə protez ortopedik məlumat və realibitasiya vasitələri, o cümlədən 144 ədəd əlil arabası verilib. Ancaq təəssüf ki, veteranların sanatoriya-kurort-putyovkası ilə təmin edilməsi sahəsində vəziyyət ürəkaçan deyil. 2018-ci il ərzində 15 nəfər veteran sanatoriya-kurort-putyovkası ilə təmin edilibdir.



İş qabiliyyəti olan, işləmək istəyən veteranların iş yerləri ilə təmin edilməsi, qanunla veteran statusu almalı olan vətəndaşların müraciətlərinin müsbət həll edilməsi üçün müvafiq orqanlar qarşısında vəsadətlərin qaldırılması istiqamətində də iş aparılmışdır. Ümumiyyətlə, ardıcıl sosial siyasət və veteranların həyat tərzini yaxşılaşdıran ehtibarlı sosial müdafiə tədbirləri təkcə Bakı şəhərini deyil, respublikanın bütün yaşayış məntəqələrini əhatə edir.

Respublika Veteranları Təşkilatı işin təkmilləşdirilməsi, yeni keyfiyyət səviyyəsinə qaldırılması mümkün olmuşdur. Şirvan şəhərində, Goranboy, Ağstafa Saatlı, İmişli, Beyləqan, Fizuli rayonlarının veteran təşkilatlarında 2018-ci il üzrə illik planın icra vəziyyəti öyrənilmiş və həmin təşkilatlara metodiki köməklik göstərilmişdir. Şəki və Lənkəran şəhərlərində



RVT sədri tərəfindən həmin zonalar üzrə veteran təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilmiş, yerli təşkilatlara fəaliyyətin daha da genişləndirilməsi ilə bağlı tövsiyələr verilmişdir. RVT nümayəndələri veteranların vəziyyəti ilə tanış olmaq və onlara münasib köməklik göstərmək üçün bu il ölkənin 20-dən çox rayonuna ezam olunmuşlar. Həmçinin, Respublika Veteranlar Təşkilatının rəhbər işçiləri avqust-dekabr aylarında cəbhə bölgəsinə səfər edərək Tərtər, Ağdam, Horadiz, Şəmkir istiqamətlərində N saylı hərbi hissələrin şəxsi heyəti ilə görüşlər keçirmişlər. Eləcə də, 2018-ci ildə Respublika Hərbi Prokurorluğu ilə birgə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti arasında hüquq qaydalarının qorunması, hərbi nizam-intizamın möhkəmləndirilməsi və hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi istiqamətində müvafiq Tədbirlər Planına uyğun olaraq nümayəndələrimiz əsasən cəbhə zonalarında yerləşən hərbi hissələrdə şəxsi heyət qarşısında müxtəlif mövzularda çıxışlar etmişlər. Belə görüşlərin xüsusilə gənc zabit və əsgərlərimiz üçün böyük təcrü-



bi və mənəvi əhəmiyyəti var. Təhsil Nazirliyinin Bakı şəhər idarəsi ilə imzalanmış Tədbirlər Planımız da uğurla icra edilmişdir.

Təşkilatın beynəlxalq əlaqələrinin daha da genişləndirilməsi məqsədilə xüsusilə MDB dövlətlərinin veteran təşkilatları ilə iş gücləndirilmişdir. MDB dövlətləri ilə əməkdaşlıq çərçivəsində bir sıra ölkələrdə, eləcə də Birləşmiş Millətlər Təşkilatının dəstəyi ilə 31 may 2018-ci il tarixdə Cenevrə şəhərində Beynəlxalq Sülh Əsgərləri Assosiyasının təşkil etdiyi "Beynəlxalq Sülh Əsgərləri günü" tədbirində iştirak edilmişdir. Həmin tədbirlərdə diqqət Azərbaycanın sülh siyasətinə baxmayaraq, 20 faiz torpaqlarımızın bu gün də Ermənistanın işğalı altında olmasına, Ermənistanın təcavüzkarlıq siyasətini bu gün də açıq və arxayın şəkildə davam etdirməsinə, İkinci dünya müharibəsinin tarixini məqsədli şəkildə saxtalaşdırmasına və s. yönəldilmişdir.

Hesabat dövründə Təşkilatın orqanı olan “Azərbaycan Veteranı” qəzetinin 23 sayı dərc olunmuş, Təşkilatın “veteran.gov.az” saytının imkanlarından təbliğati işin qurulmasında daha səmərəli istifadə edilmişdir. Tədbirlərimiz və ölkə ictimaiyyətinin Vətən müdafiəçilərinə olan münasibəti haqqında ölkə KİV-lərində, dövlət və müstəqil informasiya agentliklərində geniş məlumatlar verilmiş, “Azərbaycan”, “Respublika”, “Xalq qəzeti”, “525-ci qəzet” və s. qəzetlərdə, AzərTAC, “İnterfaks”, “The first New” məlumat agentliklərində, Azərbaycan TV, İctimai TV, Lider TV, “Xəzər TV”, ATV-də, “Mir” TV-də təbliğat işi aparılmışdır. Eləcə də, əməkdaşlarımız “Azərbaycan”, “Respublika”, “525-ci qəzet”, “Novoe vremya”, “Bakinskiy raboçi” və s. qəzetlərdə məqalələrlə çıxış etmiş, müxtəlif televiziyaların hazırladığı verilişlərdə iştirak etmişlər”.

Plenumda çıxış edən Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev bildirib ki, Respublika Veteranlar Təşkilatı ölkəmizin ictimai-siyasi həyatında fəallığı və səmərəli fəaliyyəti ilə seçilir, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti hərtərəfli dəstəkləyirlər.

Bu ilin ölkə həyatında bir çox mühüm hadisələrlə zəngin olduğunu vurğulayan Ə.Mehdiyev veteranlarımızın bu tədbirlərdə yüksək fəallıq nümayiş etdirdiklərini diqqətə çatdırıb. Veteranların böyük döyüş və mənalı həyat yolu keçərək zəngin təcrübə qazandıqlarını qeyd edən şöbə müdirinin müavini bildirib ki, buna görə də onlara cəmiyyətin ağsaqqalı, müdrik sözü, qəti və aydın mövqeyi olan insanlar kimi hörmət və ehtiram göstərilir. Bu baxımdan veteranların ictimai-siyasi proseslərdə rolu çox böyükdür. Onlar həmişə cəmiyyətdə öndə gedərək aydın şəkildə qəti vətəndaşlıq mövqeyi nümayiş etdirirlər. Azərbaycan dövləti də



həmişə veteranlara yüksək diqqət və qayğı göstərir. Dövlət siyasətinin prioritet istiqamətlərindən biri veteranların qayğı ilə əhatə olunması, onların fəaliyyətinin təmin edilməsi üçün lazımi tədbirlərin görülməsidir. Bu gün Respublika Veteranlar Təşkilatının fəaliyyəti üçün yaradılan şərait bütün bunları aydın şəkildə sübut edir.

Bu il ölkəmizdə Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileylərinin yüksək səviyyədə qeyd olunduğunu deyən Ə.Mehdiyev vurğulayıb ki, müxtəlif vaxtlarda Azərbaycan Silahlı Qüvvələrində xidmət edən veteranlarımız ordumuzun xalqımız və dövlətimiz qarşısında vəzifə borcunu yerinə yetirməsi, onun təhlükəsizliyinin qorunması, əmin-amanlığının təmin olunması işinə bu gün öz töhfələrini verirlər. Veteranlarımız indi də bu işin öhdəsindən gəlmək əzmi ilə çalışır, qarşıda duran əsas vəzifənin - işğal altındakı ərazilərimizin azad olunması istiqamətində istər orduda, istərsə də cəmiyyətdə hərbi-vətənpərvərlik ruhunun artırılması işində fəal iştirak edirlər.



Naxçıvan Muxtar Respublikası Veteranlar Təşkilatının sədri Firudin Süleymanov, Şəki rayon veteranlar təşkilatının sədri Mustafa Əhmədov, Gəncə şəhər veteranlar təşkilatının sədri Yusif Məmmədov və digərləri hesabat dövründə görülən işlərdən danışıblar.

Çıxış edənlər, eləcə də Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin üzvü, professor Bəhram Zahidov, Təşkilatın Nəzarət-Təftiş Komissiyasının sədr müavini Salman Babayev və başqaları Respublika Veteranlar Təşkilatının illik fəaliyyətini qənaətbəxş qiymətləndiriblər. Natiqlər yeniyetmə və gənclərimizin milli və hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işində, veteran hərəkatının inkişafında, cəmiyyətimizin həyatında mühüm rol oynayan Respublika Veteranlar Təşkilatının uğurlu fəaliyyətini qeyd edib, qar-



şıda duran vəzifələrdən danışıblar. Plenumun iştirakçıları Respublika Veteranlar Təşkilatının hər zaman dövlətin yanında olduğunu, Prezident İlham Əliyevin ətrafında sıx birləşərək onu dəstəklədiklərini bildiriblər.

Daha sonra C.Xəlilov gündəlikdəki ikinci məsələ olan Respublika Veteranlar Təşkilatının 2019-cu il üçün tədbirlər planı barədə məlumat verib.

Plenumda müzakirəyə çıxarılan məsələlər, o cümlədən Respublika Veteranlar Təşkilatının tədbirlər planı, habelə qurumun hesabat dövründəki fəaliyyətinin yekunları səsə qoyularaq qənaətbəxş hesab edilib.

# Sloveniyada Mehdi Hüseynzadənin anadan olmasının 100 illiyi münasibətilə tədbirlər keçirilib



Xəbər verdiyimiz kimi, dekabrın 13-14-də Sloveniyada Sovet İttifaqı və Sloveniya qəhrəmanı, Azərbaycanın igid oğlu Mehdi (Mixaylo) Hüseynzadənin (1918-1944) anadan olmasının 100-cü ildönümü münasibətilə silsilə tədbirlər keçirilir. Bu məqsədlə Azərbaycan Respublikası müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev, Azərbaycanın Avstriya, Sloveniya və Slovakiyadakı səfiri Qalib İsrafilov, Azərbaycanın Xorvatiyadakı səfiri Fəxrəddin Qurbanov, Milli Məclisin deputatı Rauf Əliyev, Oğuz Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Qurbanov və səfirliyin əməkdaşlarından ibarət nümayəndə heyəti bu ölkədə səfərdədir. Nümayəndə heyətinin tərkibinə, həmçinin Diasporla İş üzrə Dövlət Komitəsinin, müxtəlif qeyri-hökumət təşkilatlarının, Avstriya və Sloveniyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının fəalları da daxildir.

Dekabrın 14-də anım tədbirləri Mehdi Hüseynzadənin döyüş yolu keçdiyi və həlak olduğu Nova Qoritsa regionunda davam etdirilib. Nümayəndə heyəti yerli sakinlər və müharibə veteranlarının iştirakı ilə Şempas kəndində Azərbaycanın qəhrəman oğlunun şərəfinə ucaldılmış abidə önünə əklil qoyub və onun xatirəsinə yaradılmış muzeylə tanış olub.



Məlumat verilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə 2007-ci ildə məşhur kəşfiyyatçının bu kənddə abidəsi ucaldılıb, sonra isə onun xatirəsinə muzey yaradılıb. Muzeydəki o dövrə aid fotolar, Mehdi Hüseynzadənin döyüş yoldaşlarının təqdim etdikləri qiymətli eksponatlar bu muzeyə gələnlərdə qəhrəmanın həyatı və keçdiyi döyüş yolu haqqında dolğun təəssürat yaradır.

Daha sonra nümayəndə heyəti Mixaylonun 1944-cü ilin noyabrında alman nasistləri ilə ağır döyüşdən sonra həlak olduğu Vitovlye kəndinə baş çəkib, onun həlak olduğu ərazidə yerləşən xatirə lövhəsi önündə əklil qoyub, qəhrəmanın xatirəsini yad edib.

Həmin gün nümayəndə heyəti dövlət rəsmiləri, yerli əhali və veteran təşkilatlarının iştirakı ilə Çepovan məzarlığında Mehdi Hüseynzadənin məzarını ziyarət edib.

Həmin gün Çepovan kəndinin Mədəniyyət Evində Mehdi Hüseynzadənin anadan olmasının 100 illiyi münasibətilə tədbir keçirilib.

Tədbirdə əvvəlcə Azərbaycanın və Sloveniyanın dövlət himnləri səsləndirilib.

Çıxış edən Nova Qoritsa Universitetinin prorektoru Mladen Franko əfsanəvi kəşfiyyatçı Mixaylonun həyat və döyüş yoluna nəzər salıb, onun Adriatik dənizi sahillərindəki partizan fəaliyyətinə xüsusi diqqət ayırıb. Qeyd edilib ki, Mehdi Hüseynzadə İtaliyanın Udine regionunda alman əsirliyindən qaçaraq partizan hərəkatına qoşulub və Sloveniyanın Primorsk regionunda alman faşizminə qarşı mübarizə aparıb. Yuqoslaviya Xalq Azadlıq Ordusunun IX korpusu komandanlığının tapşırığı ilə Mixaylo Qradnik adına 31-ci diviziyanın qərargahı yanında kəşfiyyat-təxribat qrupu yaradıb və ona başçılıq edib. Onun qəhrəmanlığı, həyata keçirdiyi əməliyyatlar onu yerli əhalinin sevimlisinə, almanların isə qorxunc yuxusuna çevirib. 1944-cü il noyabrın 2-də Nova Qoritsa yaxınlığında yerləşən Solkan qəsəbəsindəki əməliyyatdan



geri dönən Mixaylo Vitovlye kəndində alman hərbçiləri ilə döyüşdə qəhrəmancasına həlak olub. Əvvəlcə yaxınlıqdakı Şempas kəndində dəfn edilən Mixaylonun nəşi noyabrın 19-da silahdaşları və yerli əhali tərəfindən Çepovan məzarlığındakı qardaşlıq məzarına köçürülüb.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev çıxışında Mixaylonun xatirəsini əziz tutduğuna görə Sloveniya dövlətinə və xalqına Azərbaycan xalqı, xüsusilə də Müdafiə Nazirliyinin rəhbərliyi adından təşəkkür edib. Qeyd edilib ki, Sloveniyada Mehdi Hüseynzadənin memorial muzeyinin fəaliyyət göstərməsi, abidəsinə daim diqqət yetirilməsi xalqımız üçün qürurvericidir. Onun qısa lakin şərəfli ömür yolu və qəhrəmanlığı bugünkü gənclər üçün əsl nümunədir. Qəhrəmanların təbliğ edilməsi və şərəfli hərb tariximizin öyrənilməsi ölkələrimizin müstəqilliyinin sarsılmaz olduğuna bir işarədir.

Nazir müavini bildirib ki, Mixaylo sloveniyalı silahdaşları ilə birgə həm nasistlərə qarşı mübarizə aparan partizan, həm də Sloveniya milli-azadlıq hərəkatının sadiq əsgəri olub. Azərbaycan xalqı kimi, sloven xalqı da Mehdi Hüseynzadəni öz qəhrəmanı sayır və xatirəsini uca tutur.

Xüsusilə qeyd edilib ki, sovetlər dövründə Mehdi Hüseynzadənin adının əbədiləşdirilməsinin təşəbbüskarı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev olub. Bu gün də Azərbaycan Prezidenti İlham Əliyev bu ənənəni davam etdirir. Sloveniyanın Novo Qoritsa şəhərində Mehdi Hüseynzadənin xatirəsinə ucaldılmış abidənin açılışında Azərbaycan və Sloveniya dövlət başçılarının iştirakı xalqlarımızın tarixi qəhrəmanlara verdiyi ən yüksək qiymətdir. Bu abidə istər Sloveniya, istərsə də Azərbaycan nümayəndə heyətləri tərəfindən daim ziyarət edilir, burada Mehdi Hüseynzadənin xatirəsinə həsr olunan tədbirlər keçirilir.

Qeyd edilib ki, Azərbaycan Prezidentinin Sərəncamına əsasən, bu il dövlət səviyyəsində Mehdi Hüseynzadənin anadan olmasının yüz illik yubileyinə həsr olunmuş bir sıra tədbirlər keçirilir.

Sloveniya parlamentinin yuxarı palatasının (Dövlət Şurası) sədri Aloys Kovştsa Azərbaycan və Sloveniya arasında möhkəm dostluq əlaqələrinin mövcud olduğunu qeyd edərək, Mehdi Hüseynzadə kimi qəhrəman oğula görə Azərbaycan xalqına minnətdarlığını ifadə edib. Qeyd edilib ki, müharibələrdə əsgərlər şücaət göstərirlər və qəhrəmancasına həyatlarından keçirlər. Dünyanın uzaq bir ölkəsindən gəlmiş Mixaylo Sloveniyanın azad olunmasında iştirak edib və sloven xalqı uğrunda gənc ömrünü fəda verib. O, həmçinin bildirib ki, Azərbaycan və sloven xalqları arasında sıx bağlılıq və dostluq əlaqələri var, bu bağın möhkəmliyində Mixaylo fenomeni də mühüm rol oynayır.

Tədbirin ikinci hissəsində yerli musiqi qrupları, məktəblilər və sənətçilər bədii proqramla çıxış ediblər.

Elgün Niftəli
AZƏRTAC-ın xüsusi
müxbiri, Çepovan

AZƏRBAYCAN VETERANI

# Cəlil Xəlilov: Heydər Əliyev fenomeni həmişə diqqəti cəlb edib

Dünya tarixi sübut edib ki, şəxsiyyətlərin siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında müstəsna rola malikdir. Bu şəxsiyyətlər arasında müasir müstəqil Azərbaycan dövlətinin banisi ulu öndər Heydər Əliyevin özünəməxsus yeri var. Ulu Öndər Azərbaycan və dünya tarixinin yaddaşında qalacaq. Azərbaycan ordusunun, iqtisadiyyatının güclənməsində və ölkəmizin dünyada tanınmasında Heydər Əliyevin müstəsna xidmətləri olub.

Bu sözləri AZƏRTAC-a müsahibəsində ulu öndər Heydər Əliyevin xatirəsinə ehtiramını bildirmək üçün dekabrın 12-də Fəxri xiyabana gələn Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov söyləyib.

Ulu öndər Heydər Əliyevin keçdiyi həyat yolundan, onun Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən söz açan Cəlil Xəlilov deyib: "Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı zamanın ağır sınaqlarından çıxarıb. O, böyük siyasi və dövlət xadimi, xalqın şəksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilib. Buna görə də Heydər Əliyev fenomeni həmişə diqqəti cəlb edib. Dünya azərbaycanlılarının Ümummilli Liderinin heyranlıq doğuracaq dərəcədə coşqun siyasi fəaliyyəti istər ölkə, istərsə də dünya mətbuatında geniş işıqlandırılıb".

Qeyd edib ki, Azərbaycan xalqı milli dövlətçiliyin dağılmaq təhlükəsi qarşısında qaldığı, ən ağır günlərini yaşadığı bir zamanda - 1993-cü ilin iyununda mövcud hakimiyyətin dəyişilməsini



təkidlə tələb edib və həmin vaxtdan taleyini öz xilaskarına etibar edib. Xalqının təkidli dəvətini qəbul edən Heydər Əliyevin hakimiyyətə qayıdışı günü müstəqil Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi həkk olunub.

# Cəlil Xəlilov: Azərbaycanda hər bir vətəndaşın təhlükəsizliyi yüksək səviyyədə qorunur

Azərbaycanın yeni "Qlobal Terrorçuluq İndeksi"ndə mövqeyini yaxşılaşdıraraq 98-ci yeri tutması böyük nailiyyətdir. Bu, həyata keçirilən tədbirlər nəticəsində ölkəmizdə terror təhlükəsinin olmamasının bariz göstəricisidir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov söyləyib.

Hüquq-mühafizə və xüsusi xidmət orqanlarının ölkəmizin təhlükəsizliyinin təmin edilməsi istiqamətində yorulmadan çalışdıqlarını diqqətə çatdıran ehtiyatda olan polkovnik deyib: "Azərbaycanda hər bir vətəndaşın təhlükəsizliyi yüksək səviyyədə qorunur. Ölkəmizdə sarsılmaz ictimai-siyasi sabitlik hökm sürür və hər hansı terror təhlükəsi yoxdur. Bu gün Azərbaycanda terror təhlükəsinin olmamasının bir neçə səbəbi var. Bunlardan biri də xalqın həmrəyliyidir. Çünki Azərbaycan xalqı heç zaman təxribatlara uymur, dövlətlər arasında nifaq salmaq siyasətinə sərt şəkildə etiraz edir.

Digər səbəb Prezident İlham Əliyevin həyata keçirdiyi qətiyyətli daxili və xarici siyasət nəticəsində bütün xalqların tolerant şəkildə yaşamasıdır. Ölkəmizdə azərbaycanlılarla yanaşı, digər millətlərin nümayəndələri də bərabər hüquqlara malikdir. Bütün bunlarla yanaşı, hüquq-mühafizə orqanlarının apardığı profilaktik tədbirlər Azərbaycanı terror təhlükəsindən qoruyan başlıca səbəblər arasındadır.

Respublika Veteranlar Təşkilatının sədr müavini bildirib ki, Azərbaycanda terror təhlükəsinin qarşısını alan əsas amillərdən biri də ölkədə düzgün idarəetmə və təhlükəsizlik sisteminin olmasıdır. Bu sahədə işin yüksək səviyyədə qurulmasının nəticəsində belə təxribatların qarşısı dərhal alınır və hər hansı təhlükənin baş verməməsi istiqamətində lazımi tədbirlər görülür. Bütün bunlar ölkədə hökm sürən əmin-amanlıqdan, sabitlikdən xəbər verir.

C.Xəlilov vurğulayıb ki, Azərbaycanı narahat edən əsas məsələlərdən biri Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizdə terror aktlarının və təxribatların törədilməsi cəhdləridir. Bu gün Dağlıq Qarabağda erməni terror təşkilatları tərəfindən terrorçular hazırlanmaqla yanaşı, kriminal aləmdə tanınan insanların həmin ərazilərdə gizlənməsinə şərait yaradılır. Ən dəhşətlisi odur ki, onlar Ermənistanın maraqlarına xidmət edirlər. Bu azmış kimi, işğal altındakı torpaqlarımızda narkotik bitkilər yetişdirilir və digər qanunsuz miqrant fəaliyyətləri həyata keçirilir. Bu, həm Azərbaycan, həm də qonşu dövlətlər üçün ciddi təhlükə mənbəyidir. Dünya ölkələri buna birmənalı münasibət bildirməli, Ermənistandan ərazilərimizi azad etməsi tələb olunmalıdır.

Xatırladaq ki, İqtisadiyyat və Sülh İnstitutu tərəfindən hazırlanan "Qlobal Terrorçuluq İndeksi"ndə Azərbaycan mövqeyini yaxşılaşdıraraq 138 ölkə arasında 98-ci yeri tutub. İndeks ölkədə terrorçuluğun təsirini əks etdirir və sosial-iqtisadi şəraitin təhlilinə, həmçinin radikal cərəyanların yaranmasının geosiyasi amillərinə əsaslanır. Reytinqdə ilk yerləri terrorçuların fəaliyyəti və terrorizm təhdidinin daha yüksək olduğu, sonuncu yerləri isə daha aşağı olduğu ölkələr tutur. Azərbaycan siyahıda 98-ci yerdədir ki, bu da ölkədə ümumiyyətlə terror təhlükəsinin olmadığını göstərir. Bundan əvvəl ölkəmiz reytinqdə 95-ci idi.

# Şəhid ailələrinə, Qarabağ müharibəsi və 20 Yanvar əlillərinə 145 mənzil təqdim edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən Abşeron rayonunun Məmmədli kəndindəki "Göy qurşağı" yaşayış kompleksindəki yeni yaşayış binalarından alınmış 145 mənzil şəhid ailələrinə, Qarabağ müharibəsi və 20 Yanvar əlillərinə təqdim edilib.

Tədbirdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli çıxış edib. O bildirib ki, Prezident İlham Əliyevin tapşırığı əsasında sosial cəhətdən həssas qruplara diqqət və qayğının artırılması, habelə ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə şəhid olanların ailələrinin, həmin döyüşlərdə əlil olanların mənzillə təminatı



ildən-ilə gücləndirilir. Bu tədbir həmin zümrədən olanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün atılan növbəti addımdır. Bildirilib ki, dövlət başçısının 2 avqust 2018-ci il tarixli Sərəncamı ilə şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün bu il əlavə olaraq minimum 300 mənzilin alınması üçün 20 milyon manat vəsait ayrılıb. Bunun nəticəsində 2018-ci ildə həmin kateqoriyalardan olan insanlara nəzərdə tutulduğundan 2,8 dəfə çox olmaqla 600-ə yaxın mənzilin təqdim edilməsinə imkan yaranıb.

Nazir müavininin verdiyi məlumata görə, hazırda verilən mənzillər də daxil olmaqla şəhid ailələrinə və əlilliyi olanlara bu günədək təqdim edilən mənzillərin sayı 6208-ə çatır. Həmin mənzillərdən 5,7 mindən çoxu ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə fiziki sağlamlıqlarını itirmiş insanlara və şəhid ailələrinə təqdim edilib. Bu ilin sonunadək Abşeron rayonunun Mehdiabad qəsəbəsində 72, Qaradağ rayonunun Lökbatan qəsəbəsində 200, İmişlidə 54, Şamaxıda 36 mənzilli yaşayış binalarının, ayrı-ayrı rayon və şəhərlərdə tikintisi başa çatan fərdi yaşayış evlərinin istifadəyə verilməsi nəzərdə tutulub. Qeyd edilib ki, gələn il 500 mənzil və 300 fərdi evin şəhid ailələri, Qarabağ müharibəsi veteranları və 20 Yanvar əlillərinə verilməsi planlaşdırılır.

ƏƏSMN yanında İctimai Şuranın sədri Umud Mirzəyev müharibə əlilləri və şəhid



ailələrinin rifah halının yaxşılaşdırılması, sosial təminatlarının gücləndirilməsi məqsədilə aparılan işlərin, müharibə əlilləri və şəhid ailələrinin mənzillərlə təmin edilmələrinin, eyni zamanda, şəhid hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmələrin verilməsinin ümumən cəmiyyət tərəfindən rəğbətlə qarşılandığını vurğulayıb.

Sonra püşkatma nəticəsində 1, 2 və 3 otaqlı 145 mənzil şəhid ailələri, Qarabağ müharibəsi və 20 Yanvar əlilləri arasında bölüşdürülüb. Yeni mənzillərin yerləşdiyi binanın qarşısında salınmış park, oradakı əyləncə və oyun meydançaları sakinlərin ürəyincə olub. Yeni mənzillərin sahibləri onların həyat şəraitlərinin yaxşılaşdırılması üçün görülən işlərdən razı qaldıqlarını bildiriblər. Bu qayğının növbəti ifadəsi kimi müasir tələblərə cavab verən mənzillərlə təmin olunduqlarına görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

# Mehdi Hüseynzadənin həyatı hər birimizə nümunə olmalıdır



Bakı şəhəri Binəqədi rayon 276 saylı tam orta məktəbdə Azərbaycanın görkəmli oğlu İkinci Dünya müharibəsində Yuqoslaviya müqavimət hərəkatının üzvü, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 100 illik yubiley tədbiri keçirilmişdir.

Tədbir başlanmazdan əvvəl Azərbaycan Respublikasının dövlət himni səslənmiş, İkinci dünya müharibəsində həlak olmuş azərbaycanlıların, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keç-



miş bütün şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir.

Tədbiri məktəbin direktoru, əməkdar müəllim Bəhram Şiriyev açmışdır: "Bu günki tədbirimiz Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 100 illik yubileyinə həsr edilmişdir. Bilirsiniz ki, bu yubileyin dövlət səviyyəsində geniş qeyd olunması haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev müvafiq sərəncam imzalamışdır. Bu sərəncam ölkə rəhbərliyi tərəfindən Mehdi Hüseynzadənin, ümumən İkinci dünya müharibəsində qəhrəmanlıq göstərmiş azərbaycanlıların fəaliyyətinə necə yüksək dəyər verilməsinin növbəti sübutudur.".

Tədbirdə çıxış edən Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov demişdir: "Bu günkü tədbirimiz Sovet İttifaqı Qəhrəmanı, Mixaylo ləqəbi ilə dünyada tanınan Mehdi Hənifə oğlu Hüseynzadənin 100 illik yubileyi çərçivəsində keçirilir. Mehdi Hüseynzadənin adı Azərbaycanın qəhrəmanlıq tarixinə əbədi həkk olunmuşdurr. O, nəinki ölkəmizdə Avropada, mən deyərdim bütün dünyada faşizmə qarşı cəsarətlə, dəyanətlə mübarizə aparmış insan kimi tanınır. Mehdi Hüseynzadə yüz il əvvəl dekabr ayının 22-də Bakının Novxanı kəndində anadan olmuşdur. Qəhrəman Azərbaycan oğlu döyüş zamanı əsir düşsə də, həbs düşərgəsindən qaçaraq partizan dəstəsinə qoşulmuşdur. Mehdi Hüseynzadə Yuqoslaviya, Triest, İtaliya partizanlarının sırasında alman faşizminə qarşı fəal mübarizə aparmış, kəşfiyyat-təxribat qrupun rəhbəri kimi çətin döyüş tapşırıqlarını uğurla yerinə yetirmişdir.

Azərbaycan öz qəhrəman oğlu ilə fəxr edir və onun adının əbədiləşdirilməsi üçün ölkə miqyasında görülmüş və gələcəkdə də görüləcək işlər bu minnətdarlığın nəticələridir. Bu gün Azərbaycanın Mehdi Hüseynzadə kimi qəhrəman oğullara daha böyük ehtiyacı var. Çünki, Azərbaycanın 20 faiz ərazisi təcavüzkar Ermənistan Respublikasının hərbi birləşmələrinin işğalı altındadır. Ölkənin yeniyetməsindən, gəncindən tutmuş ahıl yaşlı insanlarına qədər hər birimiz Vətənin bütövlüyü, ərazilərimizin işğaldan qurtarması üçün hər an hazır olmalıyıq. Doğrudur, Azərbaycan Respublikasının Silahlı Qüvvələri bu gün düşmənin istənilən təxribatının qarşısını vaxtında almağa, torpaqlarımızı erməni işğalından qurtarmağa tam qadirdir. 2016-cı il aprelin 2-dən 5-dək cəbhə xəttində baş verənlər Ordumuzun gücünü və döyüş əzmini aydın göstərdi. İşğalçıya, onun havadarlarına Azərbaycan əsgərinin gücü, qələbə əzmi nümayiş etdirildi. Ancaq Azərbaycan bu münaqişəni sülh yolu ilə, qan tökülmədən həll etmək istəyir. Bunun mümkün olmayacağı halda, möhtərəm prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin başçılığı altında güclü və müasir Azərbaycan ordusunun düşmənə öz yerini göstərəcəyinə əminik. Biz veteranlar buna inanır və bu müqəddəs işdə ordumuzun yanında olduğumuzu bildiririk".

Tədbirdə digər çıxış edənlər Binəqədi rayon Veteranlar Təşkilatının sədri Telman Hətəmov, jurnalist Ruqiyə Əliyeva və başqaları çıxış edərək Mehdi Hüseynzadənin və İkinci dünya müharibəsində qəhrəmanlıq göstərmiş digər oğullarımızın şücayətindən danışmış, Azərbaycan zabit və əsgərlərinin bu gün öz sələflərinin yolunu şərəflə davam etdirdiyini və yaxın gələcəkdə qəhrəman oğul və




qızlarımızın üçrəngli bayrağımızı işğal altındakı ərazilərimizdə dalğalandıracaqlarına inandıqlarını bildirmişlər.

## Ombudsman aparatının nümayəndələri hərbi təhsil müəssisələrində olublar



Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) aparatının nümayəndələri Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və Cəmşid Naxçıvanski adına Hərbi Liseydə olublar.

Hərbi qulluqçuların hüquqlarının müdafiəsi sektorunun müdiri Fəzail Həsənov və böyük məsləhətçi Murad Babayev kursantların sosial-məişət şəraiti ilə tanış olub, yeməkxanalara baxış keçirib, ərzaqların saxlanma anbarlarına baş çəkiblər. Yataq yerləri və mövsümi geyimlərə baxış keçirildikdən sonra qonaqlar kursantlarla görüşərək onların təhsilləri ilə də maraqlanıblar.

Ombudsman aparatının nümayəndələri kitabxanalara da baş çəkərək kursantların daha da yaxşı təhsil almaları, asudə vaxtlarını səmərəli keçirmələri üçün yaradılmış şəraitlə tanış olublar.

Sonda nümayəndələr təhsil ocaqlarının tibb məntəqələri və tədris otaqlarına da baxış keçiriblər.

## HDQ-də "Əsgərə Məktub!" layihəsi keçirilib

ASAN xidmət nəzdində fəaliyyət göstərən "ASAN Könüllülər"i Hərbi Dəniz Qüvvələrində "Əsgərə Məktub!" layihəsini keçirib.

Tədbir ulu öndər Heydər Əliyevin və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Layihənin mahiyyəti barədə ətraflı məlumat verildikdən sonra vətəndaşlarımız tərəfindən matroslara ünvanlanan məktublar hərbi qulluqçulara təqdim olunub və oxunub.



# "Admiral C.Cavadovun həyat, döyüş və xidməti yolu" adlı təntənəli tədbir keçirilib

Milli Azərbaycan Tarixi Muzeyində Azərbaycanın ilk admiralı Cəlil Cavadovun (1918-1980) 100 illiyinə həsr olunmuş təntənəli tədbir keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Mədəniyyət Naziri Əbülfəz Qarayev, Azərbaycan Respublikası Müdafiə



Nazirliyinin, o cümlədən SQ Hərbi Akademiyasının, Heydər Əliyev adına Azərbaycan Hərbi Məktəbinin, Azərbaycan Hərb Tarixi Muzeyinin, həmçinin Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi, Azərbaycan Respublikası Veteranlar Təşkilatının, bir sıra dövlət arxivlərinin, muzeylərin, elmi idarələrin əməkdaşlarının, eləcə də hərb tarixçilərinin və admiralın ailə üzvlərinin iştirak ediblər. Tədbiri giriş söz ilə açan Muzeyin direktoru, akademik Nailə Vəlixanlı bildirib ki, Azərbaycanın ilk admiralı C.Cavadovun 100 illiyinə həsr olunan bu tədbir əlamətdar hadisədir. Respublikada hərbi vətənpərvərlik işinin təşkilində, eləcə də Azərbaycan tarixinin şanlı səhifələrinin təbliğində admiral Cəlil Cavadovun həyat yolunun araşdırılması və geniş ictimaiyyətə, ilk növbədə gənc nəslə çatdırılması vacibdir. Muzeydə C.Cavadova məxsus əşyalar da qorunur və nümayiş etdirilir. T.ü.f.d., dosent Səbuhi Əhmədov "Azərbaycanın ilk admiralı" adlı çıxışında Cəlil Cavadovun həyat, döyüş və xidməti yolu barədə ətraflı danışıb, fotolardan ibarət prezentasiya nümayiş etdirib. Tədbirdə bu günlərdə Azərbaycan Müdafiə Nazirliyi tərəfindən çap olunmuş, müəllifi S.Əhmədov olan "Admiral Cavadov. Həyatı və döyüş yolu" adlı kitab oxuculara təqdim edilib. AR Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev Azərbaycan xalqının qəhrəman oğlu admiral Cavadovun II Dünya müharibəsi dövründə qəhrəmanlıqlarından danışıb, döyüş yolunu geniş işıqlandırıb. Silahlı Qüvvələrin Hərbi Akademiyasının professoru, tarix elmləri doktoru, ehtiyatda olan 1-ci dərəcəli kapitan Nurulla Əliyev admiral Cəlil Cavadovun Azərbaycanın hərb tarixində yerini xüsusilə vurğulayıb, onun Qara dəniz, Şimal dənizi, Baltika dənizində, eləcə də Dunay çayında keçirdiyi hərbi əməliyyatların təhlil edilməsinin vacibliyini qeyd edib. Çıxışlar zamanı Vikipediya internet ensiklopediya səhifələrində Cəlil Cavadov haqqında olan məlumatların yenilənməsi barədə məlumat verilib, yeni İnternet səhifələri onlayn rejimdə tamaşaçılara nümayiş olunub. CBC televiziya kanalının əməkdaşı Tural Əliyev layihə rəhbəri və redaktoru olduğu, admirala həsr olunan "Donanmanın əfsanəsi" sənədli filminin çəkilişləri barəsində ətraflı məlumat verib və film nümayiş etdirilib. Sonda ailə üzvləri adından çıxış edən admiralın qızı - Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Muzey işi və mədəni sərvətlərə nəzarət şöbəsinin müdiri Azadə Hüseynova Cəlil Cavadovun həyat, döyüş və xidmət yolunun tədqiq və təbliğində xidmətləri olan bütün şəxslərə dərin təşəkkürünü bildirib. Daha sonra Cəlil Cavadovun həyat, döyüş və xidmət yolunun tədqiq və təbliğində xidmətləri olan bütün şəxslərə təşəkkürnamələr, həmçinin rəsm sərgisində iştirak etmiş məktəbli uşaqlara sertifikatlar və xatirə hədiyyələri təqdim edilib. Tədbirdə Milli Azərbaycan Tarixi Muzeyinin 50-dən artıq eksponatları əsasında hazırlanmış və admiralın həyat yolunu əks etdirən sərgi nümayiş etdirilib. Eksponatlar sırasında admiralın diplomları, şəxsi əşyaları, hərbi geyimi, silahı, orden və medalları, fotoşəkilləri xüsusi maraq kəsb edir. Burada həmçinin "Hədəf" liseyi və "Günəş" art-



studiosunun hazırladığı "İlk admiralımız" adlı uşaq rəsmlərindən ibarət sərgi nümayiş olunub. 20-dən artıq məktəbli admiralın portretlərini, həmçinin onun həyatının müxtəlif anlarını təsvir ediblər.

# Azərbaycan əsgəri vətənin keşiyində məğrur dayanıb

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Respublika Veteranlar Təşkilatı ilə birlikdə tərtib etdiyi tədbirlər planının yerinə yetirilməsi məqsədilə Tərtər rayon hərbi prokuroru Hümbət Məmmədov, Təşkilatın Hərbi vətənpərvərlik şöbəsinin müdiri polkovnik Adil Haqverdiyev, Nəzarət-təftiş komissiyasının sədri Salman Babayev 13 dekabr 2018-ci il tarixdə Tərtər rayon ərazisində yerləşən Müdafiə nazirliyinin "N" saylı hərbi hissəsində olmuşdurlar.

Hərbi hissədə qonaqlar şəxsi heyətin sosial-məişət şəraiti ilə tanış olub, yeməkxanalara baxış keçiriblər. Daha sonra əsgər və zabitlərlə



görüş keçirilib. "Azərbaycan cəmiyyəti vahiddir və milli həmrəydir" mövzusunda məruzə ilə çıxışlar edilib.

Çıxış edən polkovnik Adil Haqverdiyev hərbiçiləri vətənpərvər olmağa, vətən və xalq qarşısında vəzifələrinin öhdəsindən layiqincə gəlməyə səslədi. "Hər dəfə hərbi hissələrə gedərkən bir yeniliyin şahidi oluram. Yeni hərbi şəhərciklər, maddi-texniki bazanın möhkəmlənməsi, hərbi qulluqçuların peşəkarlığının artması bir veteran kimi məni də sevindirir. Dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi daim diqqət mərkəzindədir.

Danılmaz bir faktdır ki, insanda vətənpərvərlik hissi qəhrəmanlığın əsasını qoyan amildir. Azərbaycan şanlı tarixi və əfsanəvi qəhrəmanları ilə həmişə fəxr edir. Azərbaycan xalqı qəhrəman xalqdır. Və bu xalq öz Vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetişdirib. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olan Azərbaycanın qəhrəman oğul və qızlarının ibrətamiz həyatı, şəxsi nümunəsi apardığımız hərbi vətənpərvərlik tərbiyəsi işində ön plana



keçməlidir. Müstəqil dövlətdə yaşayan hər bir gənc ilk növbədə bu dövlətin müstəqilliyinin təmin edilməsini özünün əsas vəzifəsi və məqsədi hesab etməlidir. Gənclər bilməli və dərk etməlidir ki, Azərbaycan üçün dövlət müstəqilliyi ən böyük hadisədir və bu bilik vətənpərvərlik hissinin aşılanması vasitəsilə təlqin edilə bilər.

Tərtər rayon hərbi prokuroru Hümbət Məmmədov çıxışında hərbiçiləri vətənpərvər olmağa, hərbi sirləri dərindən öyrənməyə və nizam-intizamlı olmağa səslədi. Bugünkü Azərbaycan hərbiçilərinin bilik və bacarığı, nizam-intizamı digər dövlətlərə nümunə olacaq səviyyə olmasını diqqətə çatdırdı.

Çıxışların sonunda tezliklə işğal altında olan torpaqlarımızın azad ediləcəyinə inam ifadə edildi, əsgərləri maraqlandıra suallara cavablandırıldı.

Həmçinin tərtib edilmiş müvafiq plana əsasən polkovnik Adil Haqverdiyev və Salman Babayev Fizuli rayon hərbi prokurorunun müavini Əli Məmmədovla birlikdə 14 və 15 dekabr 2018-ci il tarixlərində Fizuli rayonu ərazisindəki "N" saylı hərbi hissədə olub, əsgərlərlə "Azərbaycan Ordusu Qafqazın ən güclü ordusudur və Azərbaycanın öz Qələbə Bayramını qeyd edəcəyi gün uzaqda deyil" mövzusunda söhbətlər aparılmışdır.

Tədbir iştirakçıları eyni zamanda Hərbi hissə rəhbərliyinin müşayiəti ilə Ordumuzun 2017-ci iln aprelində azad etdiyi Lələtəpə yüksəkliyində və yeni salınmış Cocuqmərcanlı qəsəbəsində də görüşlər keçirmişdirlər. Ön cəbhədə xidmət edən əsgərləri mətin olmağa vətənin keşiyində mübariz dayanmağa səsləmişdirlər.

Veteranlar və hərbi prokrorluq orqanlarının nümayəndələri əsgərlərin və həm də Cocuqmərcanlı qəsəbəsi əhalisinin ruh yüksəkliyinin şahidi olmuşdur.

# Его славные страницы большой жизни

Ушел из жизни ветеран Великой Отечественной войны кавалер ордена «Шохрат», многих других наград за боевые заслуги капитан I ранга Александр Александрович Гритченко. Он был военным корреспондентом, служил на Дальнем востоке в Тихоокеанской флотилии, а с 1953 года в Краснознаменной Каспийской флотилии. В связи с реформами в Советской армии и Флоте 1965 году вышел в отставку и навсегда связал свою судьбу с ветеранской организацией Азербайджана и был своего рода одним из организаторов этого движения.

Александр Гритченко прожил яркую жизнь, 3 января 2019 года ему бы исполнилось 97 лет. Но он активно работал в ветеранской организации, вносил все ценное из своего накопленного опыта для воспитания настоящих патриотов нашей страны, пропагандировал подвиги и мужество сынов и дочерей Азербайджана, проявленные на фронтах в годы Великой Отечественной войны.

Он был талантливым журналистом и писателем. Находясь на переднем крае линии фронта, он писал фронтовые сообщения, заметки о солдатах и матросах, их подвигах на боевых позициях. Он был близок к людям, которые воевали и верили в победу, знал и проблемы, помогал их решать. Он был корреспондентом фронтовых газет Азовской, Дунайской флотилии, на страницах которых рассказывал о жарких схватках с заклятым врагом, успехах в выполнении боевых операций при освобождении Одессы, Севастополя, Крыма, участвовал в других боях по изгнанию фашистов с территории СССР.

Он прошел всю войну от первого до последнего дня и Победу встретил за рубежом, где освобождал Румынию, Болгарию, Югославию, Венгрию, Чехословакию и завершил войну в австрийском городе Линце. За три месяца до завершения войны, старшина первой статьи за боевые заслуги был произведен в младшие лейтенанты. Молодой газетчик был удостоен высокой чести освещать парад союзных войск в Вене 9 мая 1946 года. После войны молодого офицера направили на учебу двухгодичные курсы редакторов Военно-Политической Академии в Москве. Война сыграла особую роль в судьбе этого молодого моряка, определив его всю последующую жизнь, которую он посвятил лекционной пропаганде, подготовке и изданию книг о боевых подвигах советских солдат и моряков.

Получив высшее образование, Александр Гритченко был направлен на службу в Тихоокеанский флот, где работал в газете «Тихоокеанская вахта». Проходил службу на Камчатке и Курильских островах. Прослужив пять лет его направляют в солнечный Азербайджан в Краснознаменную Каспийскую Флотилию, где он начал работать в должности заместителя ответственного редактора военной газеты «Каспиец». И здесь он продолжал писать в газету свои репортажи с военных учений, очерки о флотской доблести моряков Черноморского и Тихоокеанского флотов.

Он ездил в Москву, встречался со многими маршалами и Героями Советского Союза: Коневым, Маресьевым, Батовым, делал интервью, писал очерки. В Азербайджан приезжали Покрышкин, Кожедуб, Каманин, с которыми он делал интервью и публиковал материалы в своей газете «Каспиец», а также республиканских газетах и часто в «Бакинском рабочем». По роду своей деятельности часто бывал в районах различных регионов республики, куда приезжал по линии ДОСААФ в качестве лектора.

Литературное творчество особая страница в жизни Александра Гритченко. Писать он начал ещё в школе и его заметки печатала «Пионерская правда», а немного повзрослев, стал публиковаться в городской газете «Счастливая смена» выходившая в Днепропетровске. На войне он уже становится военным корреспондентом и за все время военных действий опубликовал свыше 1500 заметок, репортажей и очерков с театра военных действий.

Продолжая флотскую службу на Дальнем востоке и солнечном Азербайджане, он пишет материалы о героях войны, а также издает книги. Первую книгу «Путь к подвигу» о подвиге старшины первой статьи тихоокеанца Николая Вилкова, который грудью закрыл амбразуру вражеского дота, за что был посмертно удостоен звания Героя Советского Союза. Так вот А. Гритченко установил, что вслед за Вилковым подобный подвиг совершил матрос Петр Ильичев, которому также было присвоено звание Героя Советского Союза. Потом появились его другие книги «Каспиец», маршал Г.К.Жуков, Адмирал Д. Джавадов, о подвигах героев Советского Союза А. Кулиева, М. Магерамове, З. Буниятове, подвиге Ивана Кобзаря, Дружба, рожденная в



бою, После боя, Дружба народов и Победа. Его последняя книга называется «Флотская доблесть отца и сына».

Ему первому пришла идея составить списки воинов умерших от ран в эвакогоспиталях в Баку и похороненных в братских могилах. Этот список он включил в книгу «Вечная память, павшим». В этом списке 359 фамилий-русских, азербайджанцев, евреев, грузин, узбеков, татар. Здесь короткие биографические справки о Героях Советского Союза похороненных в братских могилах Баку-Георгии Ветошникове, Никите Дронове, Романе Иванове, Павле Шеина. Все что он сделал для бойцов, увековечив их память это тоже поистине подвиг во имя погибшим.

Он был тем связующим колесиком и винтиком между государственными органам власти и семьями ветеранов войны нуждавшихся в поддержке и помощи. Он составлял списки таких семей и передавал в посольство Российской Федерации, которое оказывало им денежную помощь. В послужном списке Сан Саныча, как его с любовью звали в ветеранской организации ветеранов войны сотни добрых дел, которые невозможно перечислить. Он помогал и соседям, жившим по соседству с адмиральским домом на Баилове.

Я хорошо знал его при жизни, наши творческие пути пересеклись, когда я еще работал собкором в нашей газете.

- Зейтулла, ты, пожалуйста, пиши о живых ветеранах войны и не только об их подвигах, но о сегодняшней их жизни, их житейских заботах. Их осталось совсем мало.

Писал материал о них не только ко Дню Победы 9 мая, но в другие дни, когда находил ветеранов с интересной военной биографией.

Если говорить о его личности, то можно сказать, что Сан Саныч был симпатичным мужчиной, высокого роста, всегда ходил в форме военного моряка капитана I ранга и всегда гордился профессией военного моряка, прошедшего огни и воды Великой Отечественной войны.

Всегда подтянутый, вставал рано и ложился поздно, а с возрастом стал менять ритмы жизнедеятельности. Но одно оставалось неизменным, он всегда был в поиске создания новых книг о Великой Отечественной войне. Новую книгу «Дружба народов и победа» написанная им в соавторстве с Джалилом Халиловым может поразить любого писателя. Ему тогда стукнуло 96 лет, ходил он, опираясь на палочку, но душа его была молодой. Я готовил рецензию на новую книгу и часто общался с ним по телефону. Мы обсуждали отдельные главы его книг, и он отвечал на все мои вопросы. Рассказывал, как он составлял списки ветеранов войны захороненных в братской могиле.

По характеру он был бесстрашным и мужественным воином, с честью выполнял любое боевое задание командиров. Как человек долга и чести он достойно выполнял любое задание руководства ветеранской организации. Сан Саныч каждый год к очередной годовщине великой Победы приходил с новой книгой. Он был инициатором многих начинаний в деятельности общественной организации. Как-то в шутку офицеры говорили о нём следующее: «Саныч-Саныч, напишете, а мы подпишем». Да было такое время, от имени ветеранской организации Саныч готовил коллективное заявление против пропаганды Западных стран, намерено проводивших политику пересмотра итогов Второй мировой войны, или же готовил обращение за ветеранскую солидарность в обществе. В школу его приглашали часто, дети его слушали внимательно и особым чувством гордости воспринимали его рассказ о боевых сражениях грозных лет военного лихолетья. Он не рассказывал сказки, а делился своими сокровенными чувствами, испытанными на войне.

В эти дни глубокой скорби и траура я услышал разные слова благодарности и мнения о Сан Саныче, которые шли от души людей со слезами на глазах. Одни его назвали Богом в переносном смысле слова, потому что он не проходил мимо человеческого горя и протягивал свою руку помощи, делая все, что мог и не мог. Он был, добрым, чутким внимательным сотрудником Совета ветеранов, сам много работал и заставлял других, говоря, одно и тоже: «У нас времени в запасе осталось очень мало. Друзья, мы работаем над памятью тех, кого нет рядом с нами. Придет время, и мы уйдем в иной мир. Кто же напишет о подвигах неизвестных солдат?».

Да, он писал без отдыха, словно хотел все рассказать о людях ковавших победу на войне. Они сознательно шли на смерть, сокрушая позиции врага. Так книга за книгой создавалась летопись военной эпопеи о Великой Отечественной войне. Возьмите любой том из его произведений о Великой Отечественной войне, полистайте, внимательно вчитываясь в отдельные эпизоды минувших сражений, и можете себе представить, что было и как это было в театре военных действий по имени война. Сколько людей погибло! Невозможно подсчитать и поэтому наши злопыхатели, приводят такие цифры, которые не соответствуют действительности.

По инициативе А. Гритченко в Баку было создано отделение писательской организации МАПБиМ. В её состав вошли литераторы, пишущие на военно-патриотические темы Джалил Халилов, Лятиф Шукюров, Галина Шипулина и многие другие. Так у ветеранов появилась писательская организация, ряды которой постоянно растут и её члены продолжают благородную миссию, начатую Александром Гритченко по военно-патриотическому воспитанию молодежи. Его детище продолжает расти и развиваться, в его рядах уже свыше трех десятков членов писательской организации.

Все люди рождаются, живут и умирают, в том числе и ветераны войны. Но они умирают в самом прямом смысле тогда, когда общество не вспоминает о них. Александр Гритченко это хорошо понимал и, несмотря на свой преклонный возраст, он продолжал писать о ветеранах войны, демонстрируя этим, что ветераны не умирают, они всегда с нами в одном строю. А когда со зрением было неважно, он начал диктовать, а его жена Роза Дмитриевна записывала главы будущих книг о войне. Так продолжалось его творчество, появлялись новые тома о военной эпопее...

Вот и Сан Саныч ушел из жизни, сполна исполнив свой патриотический, гражданский и писательский долг, посвятив свои произведения памяти героям войны и ветеранам, которых нет рядом с нами.

Сегодня 40 дней как нет рядом с нами большого друга ветеранов войны, военного журналиста и писателя-публициста, замечательного человека с большой буквы. Прощайте наш незабвенный ветеран войны, человек-легенда, перо которого верно служило Азербайджану и его народу. И простите нас Сан Саныч, что вас не уберегли.

Зейтулла ДЖАББАРОВ,
заслуженный журналист, писатель и публицист

# "Qaliblərin Balı"nda Azərbaycan veteranları da təmsil olunmuşlar

Hər il dekabr ayının ilk günlərində Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində MDB ölkələri İkinci dünya müharibəsi veteranlarının və Veteran Təşkilatları nümayəndələrinin iştirakı ilə "Qaliblərin Balı" adlı təntənəli tədbirin keçirilməsi artıq bir ənənə şəklini almışdır. Moskva şəhəri uğrunda gedən döyüşlərin ildönümü ərəfəsində baş tutan bu tədbir ömrünün ahıllıq dövrünü yaşayan veteranlar üçün həm də keçmiş döyüş yoldaşları ilə görüşmək imkanı kimi əhəmiyyətlidir. "Qaliblərin Balı"nda bir araya gələn veteranlar öz cəbhə xatirələrini bölüşür, həlak olmuş dostlarını yad edir, indiki fəaliyyətləri, gündəlik qayğıları barədə səmimi söhbət edir, onları maraqlandıran suallara cavab axtarırlar.

Bu il də ənənəyə uyğun olaraq bu genişmiqyaslı tədbirdə MDB ölkələrindən olan İkinci Dünya Müharibəsi veteranları, veteran təşkilatlarının əməkdaşları, Rusiya Federasiyasının Müdafiə, Mədəniyyət nazirliklərinin rəsmiləri, tanınmış hərbi və ictimai xadimlər iştirak edirlər. İctimaiyyətin, medianın diqqət mərkəzində olan bu tədbir bir qayda olaraq yüksək səviyyədə təşkil olunur və Rusiya KİV-də geniş işıqlandırılır.



"Qaliblərin Balı" adlanan növbəti, 13-cü tədbir cari il dekabr ayının 8-də Moskva şəhərində yerləşən Qələbə Mərkəzi muzeyində M.Liepa Fondu və Birləşmiş metallurgiya kompaniyasının təşkilatçılığı ilə baş tutmuşdur. Həmin tədbirdə Azərbaycanı İkinci dünya müharibəsi veteranı Qara Sarıyev və Ulduz Kəngərli, Respublika Veteranlar Təşkilatının şöbə müdiri, ehtiyatda olan polkovnik Lətif Babayev və Təşkilatın aparıcı mütəxəssisi Azər İsmayılov təmsil etmişlər.

Qaliblərin 13-cü Balı İkinci dünya müharibəsinin başlanması, faşist almaniyasının keçmiş SSRİ-yə hücumu, müharibənin gedişi və müharibədən sonra SSRİ-də gedən quruculuq illərinə həsr olunmuş geniş kompozisiyanın nümayişi ilə başlanmışdır. Alman faşizmi üzərində qələbəyə aparan yolun bütün mühüm mərhələlərinin, arxa cəbhənin həmin qələbənin əldə olunmasında iştirakının və müharibədən sonrakı bərpa işlərinin dolğunluğu ilə əksini tapdığı kompozisiya böyük maraq doğurmuşdur. Kompozisiya müharibənin od-alovundan çıxmış, bu gün yaşı 100-ü haqlamaqda olan insanlar tərəfindən xüsusilə həyəcan və göz yaşları ilə qarşılanmışdır. Sonra Rusiya TV-lərinin canlı yayımladığı bayram tədbiri - "Qaliblərin Balı" başlanmışdır. Müharibənin canlı şahidləri, RF-nın rəsmi dövlət və ictimai təşkilatlarının nümayəndələrinin çıxışlarının yer aldığı, rəsmi təbriklərin oxunduğu tədbirdə Rusiya Federasiyası və digər ölkələrin tanınmış incəsənət xadimlərinin ifasında vətənpərvərlik, o cümlədən, torpaq, ana, müharibə, qələbə haqqında mahnılar səsləndirilmişdir.

Azərbaycan nümayəndə heyətinin üzvləri tədbir çərçivəsində media nümayəndələrinə ölkəmizin İkinci dünya müharibəsində yaxından iştirakı, azərbaycanlıların qəhrəmancasına vuruşaraq ən yüksək fəxri adlara, orden-medallara layiq görülmələri, qanlı döyüşlərdə 320 mindən çox soydaşımızın həyatlarını itirməsi, Azərbaycan xalqının bəşəriyyətin dəhşətli bəladan xilası naminə arxa cəbhədəki fədakar əməyinə dair məlumatlar çatdırmışlar. Eləcə də digər ölkələrin veteranları və veteran təşkilatlarının nümayəndələri ilə kuluar söhbətlərində Azərbaycanda 9 may Qələbə gününün hər il böyük təntənə ilə qeyd edilməsi, veteranlara dövlət tərəfindən xüsusi qayğı göstərilməsi, Azərbaycan Veteranlar Təşkilatının qarşılıqlı əməkdaşlıq əlaqələrinə mühüm əhəmiyyət verdiyi bildirilmişdir.



Tədbir çərçivəsində Azərbaycan Veteranlar Təşkilatının adından təşkilatçılar - Qələbə Mərkəzi muzeyinin müdiri Şkolnik Aleksandr Yakovleviç və M.Liepa Fondunun sədri Liepa Andris Marisoviç Respublika Veteranlar Təşkilatının təsis etdiyi yubiley medalları ilə təltif olunmuşlar.

Tədbirdə Azərbaycan veteranları bir sıra ölkələrin veteranları və nümayəndə heyətləri ilə xatirə şəkli çəkdirmişlər.

# Onun əməksevərliyi gənclərimizə örnəkdir

Ulu Öndərin 1993-cü ildə dövlətçiliyimizi bərpasından sonra ölkəmiz çiçəklənməyə, inkişaf etməyə başladı. Bu inkişafda əməyi olan, torpağa bağlılığı ilə nümunə göstərən vətəndaşlarımızdan biri də, 1993-cü ildən Yeni Azərbaycan Partiyasının və yerli bələdiyyənin üzvü, Respublika veteranları təşkilatının da üzvü olan Xıl kənd sakini Əlvan Məmmədovdur. Onun iki qızı, bir oğlu vardır. Oğlu Qarabağ müharibəsi əlili, prezident təqaüdçüsüdür, YAP-ın fəal üzvlərindəndir.

Əlvan Məmmədov öz ömrünü doğma torpağın əkilib becərilməsinə həsr edib. Hərə bacardığı işdən yapışmalıdır, deyiblər. Əlvan Məmmədovun əlindən gələn də kənd təsərrüfatının inkişafına dəstək verməkdir. Ona verilmiş payıbəlli torpaq sahəsini yüksək aqrotexniki qaydada hazırlamaqla buğda, tərəvəz məsullarının bütün növlərindən( xiyar, pamidor, lərgə, noxud, mərci və digər) əkərək süfrələrimizi zənginləşdirir. Ölkə Prezidenti İlham Əliyev cənablarının tövsiyələrini rəhbər tutaraq yerli düyü əkmişdir, məhsuldarlıq da ürək açandır.

Kənd sakinləri nümunəvi əkinçidən örnək alaraq həm siyasi, həm iqtisadi, həm də mənəvi cəhətdən fəallıq nümayiş etdirir, möhtərəm Prezidentimizin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər.

Əlvan Məmmədov həmçinin gözəl xeyriyyəçidir. Kəndimizin aztəminatlı ailələrinə əl tutur, onların problemlərinin həllinə daim çalışır.

Təsərrüfatını ürəkdən sevən Əlvan Məmmədovun əkib-becərdiyi əkin sahələrinə rayonun icra hakimiyyətində nümayəndələr gəlib yoxlama aparmış və təsərrüfatın yüksək səviyyədə idarə edildiyindən razılıq edərək, nümunəvi iş aparıldığını vurğulamışlar. Onun bu bacarığını RİH-nin başçısı cənab Rafil Hüseynov da qiymətləndirərək, ona işlərində dəstək verməkdədir.

2012-ci ildə Əli Bəylərbəyov adına Xıl kənd tam orta məktəbinin təməli qoyulan günü Milli Məclisin üzvü Elmira xanım Axundova və cənab Rafil Hüseynov Əlvan kişinin təsərrüfatında olmuş və onun əməyinə yüksək qiymət verməklə yanaşı onu dinləmişlər, söylədiyi mövcud təsərrüfat problemlərini yerindəcə həll etmişlər. Bu münasibət Əlvan Məmmədovu yeni əmək qələbələrinə həvəsləndirmiş, becərilən torpaq sahəsini daha da genişləndirmişdir.

Əlvan Məmmədovun ailəsi öz ehtiyaclarını əməkləri hesabına ödəyə bilən ailələrdəndir. Bu günə kimi dövlətdən hər hansı pul müavinəti almamışlar və bunu Əlvan kişi belə izah edir: "Hamımızın əlləri, ayaqları var. Torpağı da yaxşı görürük. Elə isə niyə öz zəhmətimizə qatlaşmayaq? Zəhmət çəkmək, torpağı becərmək lazımdır. Torpağa baxsan o da sənə baxar, səni doyurar. Hamıya da tövsiyəm budur."

Əlvan Məmmədovun təsərrüfat təcrübələri istər rayon, istərsə də respublika mətbuatında işıqlandırılıb. Belə ki, rayonumuzun hakim qəzeti " Yeni həyat"-da 2015-ci il 7 iyul tarixli sayında geniş məqalə dərc olunub. "İctimai televiziya" onun təsərrüfatında çəkiliş aparmış və yayımlamışdır.

Əlvan Məmmədovun siyasi baxışları da cəbedicidir: həyətində 25 metr hündürlüyündə dayaqda Azərbaycan bayrağı dalğalanır, sanki görənləri qələbəyə haraylayır. Həmkəndlilərimizin çoxu zarafatla ona deyir: "Maşallah, sənin



həyətin Bayraq meydanını xatırladır". Bəli, Əlvan Məmmədov özünün nümunəvi əməyi, davranışı, gənc nəslin tərbiyəsinə münasibəti, torpağa olan sevgisi, Vətənə olan sədaqəti, rəhbərliyə olan hörməti ilə həmişə öndədir.

*Əkrəm Qafarov,*
*Respublika Veteranları Təşkilatının üzvü, əmək veteranı*

**"Azərbaycan Veteranı" qəzetinin elektron ünvanına (az.veteran@mail.ru) məqalələrinizi göndərməklə bizimlə əməkdaşlıq edə bilərsiniz. Qeyd edək ki, "Azərbaycan Veteranı" qəzetində dərc olunan məqalələrdəki faktlara və məlumatlara görə müəllif məsuliyyət daşıyır. Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Azərbaycan Beynəlxalq Bankı ASC-nin Səbail filalı**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN, 1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34*
***Əlaqə telefonu:** 012 440-21-08*
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi** - 3486*
***Dövlət qeydiyyat tarixi** - 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1290*